

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 163 (24.300)

7 sentyabr 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

Qiyməti 30 qəpik

## Sosial sabitlikdən sosial rifaha

*Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra ölkəni tənəzzüldən çıxarmaq üçün bir sıra cəsarətli və ardıcıl addımlar atdı. Bu siyasətin mərkəzində əhalinin sosial güzəranını yaxşılaşdırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, sığorta-pensiya sisteminin modernləşməsi, bir sözlə, sosial siyasətin transformasiyası durdurdu. Sevindirici haldır ki, Ulu Öndər Heydər Əliyev dühasının demokratik cəmiyyət və liberal iqtisadiyyat qurmaq istiqamətində məharətlə apardığı uzunmüddətli siyasət bu gün özünün müsbət nəticələrini verir və həyatın bütün sahələrində uğurlar qazanır.*

Görkəmli dövlət xadimi Heydər Əliyevin səyləri və dünya ölkələrinin qabaqcıl təcrübəsindən istifadə edilməsi sayəsində ölkədə strukturlaşmış, ayrı-ayrı əlaqədar sahələri özündə birləşdirən sosial müdafiə sistemi yaranmağa başladı. Eyni zamanda sosial siyasətin prioritet sahələri müəyyən olundu və problemlərlə birbaşa məşğul olan yeni dövlət qurumları yaradıldı.

Bütövlükdə, sosial müdafiə sisteminin müasir idarəetmə strukturu özündə bir neçə baş istiqamətləri ehtiva edir. Bunun birincisi sosial müdafiədə qabaqlayıcı, yarana biləcək problemlərin qarşısının alınması tədbirləri, ikincisi, sosial reabilitasiya, cəmiyyətə adaptasiya, sağlamlığın bərpası, əməyə qaytarma istiqamətli tədbirlər, üçüncüsü isə ünvanlı sosial müdafiədir.

Bu gün Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış müasir və modern dövlət modeli Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, mütərəqqi sosial islahatlar daha da dərinləşdirilir, əmək münasibətlərinin tənzimlənməsi sahəsində ciddi tədbirlər hazırlanıb həyata keçirilir. Azərbaycanda həyata keçirilən nümunəvi sosial siyasətin ən səciyyəvi cəhətlərindən biri odur ki, ölkəmizdə ədalətli resurs bölgüsü təmin edilir və qayğıya ehtiyacı olan bütün insanlar dövlət tərəfindən dəstəklənilir. Bu kontekstdə respublikamızda dövlət başçısının siyasi iradəsi əsasında şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, məcburi köçkün soydaşlarımıza göstərilən qayğı diqqəti xüsusi olaraq cəlb edir. Azərbaycanda həssas qruplardan olan insanların güzəşt və imtiyazlarının ildən-ilə daha da artırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

2021-ci il fevralın 2-də təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair



Milli Prioritetlər"ə görə, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritet formalaşdırılıb. Bu prioritetlərdən biri də "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət"dir. Bu sənədə görə, sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi nəzərdə tutulur.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir.

Ötən dövr ərzində ölkə iqtisadiyyatının inkişafının müxtəlif istiqamətlərinin vahid Dövlət proqramları çərçivəsində tənzimlənməsi, iqtisadi inkişafın sürətləndirilməsi, sosial-iqtisadi inkişafda regionların rolunun yüksəldilməsi, iqtisadiyyat sahələrinin və re-



gionların kompleks inkişafının təmin edilməsi nəticəsində əhalinin rifah halının və həyat standartlarının təkmilləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Qeyd olunan ümumi inkişaf fonunda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı və sosial həyatı da özünəməxsusluğu ilə fərqlənir. İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilən mühüm Dövlət proqramları və sənədlərdə aydın şəkildə ifadə olunur.

İnnovasiyalar daha təkmil texnoloji proses yaradılması, bazara yeni məhsul çıxarılması, həmçinin sosial xidmətlərə yeni tərzdə yanaşma ilə ifadə olunur. Zaman keçdikcə bütün sahələrdə innovasiyaların artan sürətlə tətbiq olunması muxtar respublikanın sosial-iqtisadi inkişafının müasir və nəzərəçarpan mənzərəsini yaradıb. Hazırda muxtar respublikada sosial-iqtisadi inkişafın təməlində iqtisadi inkişafın sosialyönümlü olması, hər bir vətəndaşın maddi rifahının yüksəldilməsi, iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, iqtisadi tərəqqinin əsas meyarlarından olan azad rəqabət, investisiya mühitinin daha da yaxşılaşdırılması, məhdudiyyətlərin aradan götürülməsi, investisiyaların və sahibkarlığın inkişafının təşviqi üsullarından geniş istifadə olunması və iqtisadi təhlükəsizliyin təminatı üçün aparılmış kompleks işlər dayanır.

Naxçıvan Muxtar Respublikasında infrastrukturun və idarəetmə mexanizminin yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin açılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verir. Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan iqtisadi rayonunun inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır. Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının

> **Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Bizim düşünülmüş siyasətimiz, iqtisadi potensialımız, güclü sosial siyasətimiz var- dır. Bütün siyasətimizin başında Azərbaycan vətəndaşı dayanır.*

daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi ön plana çıxmışdır. Mövcud potensialdan daha səmərəli istifadə etməklə bölgədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və davamlılığının təmin edilməsi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar kompleks proqramların icra olunması məqsədilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir.

Bu gün ölkəmizdə torpaqlarımızın azadlığı uğrunda vuruşan Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan dövləti ardıcıl olaraq bu kateqoriyalı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda bu istiqamətdə görülən tədbirlər sistemində ünvanlılıq prinsipi əsas götürülür, aztəminatlı, ailə başçılarını itirən, eləcə də, şəhid və qazi ailələri, xüsusi qayğıya ehtiyacı olanlar dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Başqa sözlə, dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsi yüksək səviyyədə təşkil edilir.

Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən hər zaman böyük diqqət və qayğı göstərilir. Prezident cənab İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçulara, erməni hərbi təxribatı nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlara, şəhidlik zirvəsinə ucalan hər bir şəhidin ailəsinə, qazilərimizə diqqət və qayğısını heç zaman əsirgəməmişdir.

Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır. Şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir və ilbəil artmaqdadır. Şəhid ailə üzvlərinə dövlət tərəfindən müəyyənləşdirilmiş pensiya və müavinətlərin ödənilməsi vaxtlı-vaxtında təmin edilir. Həmçinin həlak olmuş hərbi qulluqçuların ailələrinə birdəfəlik sığorta ödənişinin verilməsi, aylıq olaraq şəhid ailələrinə Prezident təqaüdü verilməsi, şəhid uşaqlarının təhsil haqqı ödəməkdən azad olunması kimi humanist tədbirlərin həyata keçirilməsi şəhid ailələrinə dövlət qayğısının ən böyük nümunəsidir.

2020-ci il dekabrın 8-də Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun ("YAŞAT" Fondu)" yaradılması haqqında imzaladığı Fərman da bu humanist addımlardan biridir. "YAŞAT" Fondu şəhid ailələrinə və qazilərə əlavə dəstək üçündür. Bu fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır. "YAŞAT" Fondunun əməkdaşları ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananların və şəhid ailələrinin yaşadıqları ünvanlara üz tutaraq onların həyat şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görürlər. Bu fondun əməkdaşları şəhid ailələrinin üzvləri və qazilərimizdən təşkil olunub. Həyata keçirilmiş tədbirlər çərçivəsində hazırda hər bir şəhid ailəsi və qazinin həyat şəraitinin yaxşılaşdırılması üçün proses davam edir. Fondun fəaliyyəti çərçivəsində müvafiq kateqoriyadan olan şəxslərin ehtiyacları qarşılanır.

Naxçıvan Muxtar Respublikasında da Azərbaycan Vətən müharibəsi veteranları və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Müharibə veteranları və şəhid ailələri minik avtomobilləri, fərdi ev və mənzillərlə təmin olunur, onların müxtəlif sanatoriyalarda müalicələri təşkil edilir. Muxtar respublikada



Vətən müharibəsi şəhidlərinə də böyük ehtiram göstərilib, şəhid ailələri hərtərəfli qayğı ilə əhatə olunublar. Göstərilən diqqət və qayğının daha bir nümunəsi "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına "Dəstək" Fondunun Himayəçilik Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 22 iyun tarixli Sərəncamıdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına "Dəstək" Fondunun Himayəçilik şurası muxtar respublikada ictimai nüfuzu olan 7 nəfərdən ibarət tərkib əsasında yaradılıb. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların müalicə xərclərinin qarşılanması, təhsil və təhsillə bağlı xərclərinin ödənilməsi, bu sahədə muxtar respublikada həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi "Dəstək" Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir.

*Sosial-iqtisadi həyatda görülən işlər ölkəmizdə iqtisadi islahatların dərinləşməsini və Vətənimizin bazar iqtisadiyyatı istiqamətində müvəffəqiyyətlə irəliləməsini, xalqın həyat səviyyəsinin dinamik olaraq yüksəlməsini bir daha sübut edir. Ölkəmizin iqtisadi inkişaf perspektivləri nəzərə alınmaqla qarşıdakı illərdə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində işlər davam etdiriləcək.*

**Mirməcid SEYİDOV**

***Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən, Azərbaycan Vətən Müharibəsi və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri***

## Naxçıvan şəhərində piyada səkiləri yenidən qurulur





Son günlərdə Naxçıvan şəhərində insanların rahatlığı və təhlükəsizliyi üçün sosial-mədəni infrastrukturun yenidən qurulması istiqamətində işlər aparılmaqdadır. Yol verilmiş nöqsanlar ucbatından qəzalı vəziyyətə düşmüş binaların, yol və piyada səkilərinin yenidən inşası, müasir tələblərə uyğun şəkildə qurulması yerli əhalinin və şəhərimizə gələn qonaqların razılığına səbəb olur. Belə ki, təxminən, 15-20 il əvvəl şəhərimizdə piyada yollarına, meydanlara və istirahət parklarına döşənən sal dağ daşları insanların rahat hərəkətinə əngəl törədir, yağışdan sonra kiçik gölməçələrin yaranmasına səbəb olur, olduqca baxımsız mənzərə yaradırdı. Daimi oxucularımız da xatırlayırlar ki, hələ qəzetimizin 15 fevral 2023-cü il sayındakı “Tikintidə əsas məqsəd insan həyatı və təhlükəsizliyi olmalıdır” başlıqlı yazıda da bu yöndəmsiz daşların insanların rahat hərəkəti üçün çətinliklər yaratdığını qeyd etmişdik. Artıq şəhərimizdə piyadaların hərəkəti üçün nəzərdə tutulmuş yollara döşənmiş bu dağ daşlarının sökülərək yenidən qurulmasına başlanılıb.

Aparılan abadlıq tədbirləri ilə tanışlıq zamanı iş icraçısı Orxan İsmayılov qeyd etdi ki, ilk mərhələdə Heydər Əliyev prospekti boyunca, Əcəmi seyrəngahı ərazisində və yolun qarşı tərəfindəki piyada səkilərinə döşənmiş bu daşların sökülməsi və yerinə gözoxşayan mozaikalı müasir kilid daşlar döşənməsi işləri aparılır. Təmizlənib, yenidən abadlaşdırılan yol kənarlarından istifadə edən sakinlər də onlara göstərilən bu qayğıdan məmnun olduqlarını ifadə edirlər.

✍ **Əli CABBAROV**

## ENACTUS komandası yeni uğurlara imza atır



Naxçıvan Dövlət Universitetinin ENACTUS komandası Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən ENACTUS Milli Yarışında finala vəsiqə qazanıb. Bu münasibətlə ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev komanda üzvləri ilə görüş keçirib. Rektor onları əldə etdikləri nailiyyətə görə təbrik edib, komandanın fəaliyyəti, hazırlıqları barədə müzakirələr aparılıb. Görüşdə, həmçinin universitetin ENACTUS komandasının üzvləri videoçarx əsasında layihələrini əyani formada təqdimatını ediblər.

Nəzərinizə çatdıraq ki, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqı, “Gənclərin Maarifləndirilməsinə Dəstək” İctimai Birliyi və Enactus Azərbaycanın birgə təşkilatçılığı və BP Azərbaycan şirkətinin baş sponsorluğu ilə keçirilən 2023 Enactus Azərbaycan Milli Yarışının yarımfinal mərhələsində universitetin ENACTUS komandası “Zeropollution”, “Termobee” layihələri ilə böyük uğur əldə edib.

Qeyd edək ki, ümumilikdə, 24 komandanın iştirak etdiyi yarımfinalda hər liqada 2 komanda olmaqla, 3 liqa üzrə komandalar finala vəsiqə qazanıb. I liqada Naxçıvan Dövlət Universiteti, ADA Universiteti, II liqada Azərbaycan-Fransız Universiteti, Dövlət İdarəçilik Akademiyası, III liqada isə Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Gəncə Dövlət Universiteti yer alıb.

Məlumat üçün onu da bildirək ki, ölkə finalında qalib olan komanda oktyabr ayında, Niderland krallığının Utrext şəhərində keçiriləcək dünya çempionatında Azərbaycanı təmsil edəcək.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən aparılan yoxlamalar nəticəsində Naxçıvanda daha bir məktəbin qəzalı vəziyyətdə olduğu

## Daha bir qəzalı məktəb



müəyyən edilib. Belə ki, Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbin binasında bu hal aşkarlandığından müvafiq təmir işlərinə başlanılıb. Məlumat üçün bildirək ki, 2007-ci ildə istifadəyə verilən məktəb binasının ikinci mərtəbəsinin döşəməsi yükgötürmə qabiliyyətindən dəfələrlə aşağı, standartlardan uzaq, zəif konstruksiya ilə işlənib. Bu da həmin hissədə qəzalı vəziyyət yaradıb. Xüsusən də şagirdlərin kütləvi hərəkəti zamanı ikinci mərtəbənin döşəməsində və təbii olaraq ona birləşik şəkildə olan birinci mərtəbənin tavan hissəsində güclü silkələnmələr baş verir. Bu vəziyyət isə həm



müəllim və valideynləri, həm də şagirdləri qorxuya salır. Hazırda mövcud problemin aradan qaldırılması istiqamətində aidiyyəti qurumlar tərəfindən müvafiq tədbirlər həyata keçirilir, ikinci mərtəbənin döşəməsində təmir-bərpa işləri aparılır, həmçinin dəmir konstruksiyaların köməyi ilə qəzalı vəziyyətdə olan hissələr möhkəmləndirilir.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov mətbuata müsahibəsində qeyd edib ki, bərpa-gücləndirmə işləri aparılan məktəbin yeni tədris ili üçün istifadəyə yararlı vəziyyətə gətirilməsi gözlənilir.

Xatırladaq ki, belə bir tikinti-quruculuq rəzaləti bundan əvvəl, Babək rayonunun Hacıvar kəndində də qeydə alınmışdı. Məsuliyyətsiz yanaşma və qeyri-peşəkarlıq səbəbindən məktəb binası düzgün qaydada texniki göstərici və normativlərə uyğun tikilməmişdi. Aidiyyəti qurumlar tərəfindən məktəb binasında bu istiqamətdə yoxlama işləri aparıldıqdan sonra bina sökülmüşdür. Hazırda həmin məktəb üçün yeni bina inşa olunur.

Maraqlıdır, dövlətimizin insanların rahatlığı, firavanlığı üçün bu qədər vəsait ayırıb icra etdiyi belə layihələrdə çalışan, işini bilməyən, dövlətimizin diqqət və qayğısından sui-istifadə edən “iş icraçıları” nə düşünürlər? Özlərində azca da olsa, məsuliyyət hiss edirlərmi? Fikirləşirlərmi ki, gələcəkdə bu ünvanlarda təhsil alacaq, işləyəcək insanlar öz millətimizin övladları, bu dövlətin vətəndaşları, konkret desək, mən, sən, o olmayacaq? Məktəblərimizə gəldikdə isə belələrinə xatırlatmaq istərdik. O ünvanlarda təhsil alacaq uşaqlar bizim gələcəyimizdir.

**Xəbərlər şöbəsi**

## Mövsümü uğurla başa vuran nümunəvi təsərrüfat adamları

*Avqustun 23-də Kəngərli rayonunda keçirilən “Taxıl istehsalının inkişafı ilə bağlı 2023-cü ilin yekunları və cari ildə payızlıq taxıl əkinləri üçün qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə əkinçiliyin inkişafda olan aparıcı sahəsi üzrə əldə olunan nailiyyətlərdən danışılıb, mövcud vəziyyət, görülən işlər təhlil edilib, nöqsanların aradan qaldırılması yollarından söhbət açılıb. Qeyd olunub ki, taxıl istehsalında məhsuldarlığa görə muxtar respublikada Şərur və Sədərək rayonları ən yüksək, Ordubad, Culfa və Şahbuz rayonları isə aşağı nəticə əldə ediblər. Taxıl istehsalçıları sırasında ən yüksək göstərici Şərur rayonunun Çomaxtur kəndindən olan Tağı Məmmədova məxsusdur. O, 0,47 hektar ərazidən 5 ton məhsul əldə edib. Məhsuldarlıq 106,4 sentner olub. Müşavirədə nümunəvi taxıl istehsalçıları kimi 8 təsərrüfat adamı əldə etdikləri yüksək məhsuldarlığa görə fəxri fərmana layiq görülüb. Onlardan Tağı Məmmədov və Zaur Cəfərovun təsərrüfat fəaliyyətləri barədə qısaca söhbət açmaq istərdik...*

***Tağı Məmmədov*** Şərur rayonunun Çomaxtur kəndinin sayılıb-seçilən ailə təsərrüfatçılarındandır. Ömrünün 74-cü baharını yaşayan bu kənd adamı ötən əsrin 90-cı illərindən, daha dəqiq desək, 1994-cü ildə torpaq islahatından sonra ona düşən pay ərazidə əkin-biçin işləri ilə məşğul olmağa başlayıb. Yaşının ahıl çağları olmasına rəğmən bu gün də övladlarını, nəvələrini başına yığaraq hər gün “çörək ağacı”nın nazını çəkməyə tələsir. Bu barədə böyük şövqlə danışır: – Özümü dərk edəndən torpaq mənim əsas iş yerim olub, ailəmin gündəlik azuqəsini, güzəranımızı əkin-biçin işləri ilə təmin etmişəm. Kolxoz, sovxoz ləğv olunub torpaqlarımız qaytarıldıqdan sonra isə bu işə daha həvəslə, könüldən can yandırmışam. Halal zəhmətimlə ev-eşik sahibi olub, oğul-nəvə böyütdüyüm üçün özümü xoşbəxt hiss edirəm. Pay torpağımız yaşadığımız evin lap yaxınlığında yerləşir. Buna görə işimiz daha rahatdır. Vaxtlı-vaxtında əraziyə baş çəkirik, mal-heyvan zərər verməsin deyə, necə deyərlər, daha yaxından göz-qulaq oluruq. Bu gün mətbuatdan oxuyur, televiziya ekranlarından tez-tez eşidirik ki, dünyada qlobal istiləşmə gedir, su problemi vardı. Naxçıvanda da bu il havalar çox isti keçir, quraqlıq halları qaçılmazdır. Ancaq şükürlər olsun ki, təsərrüfatımız su barədə problem yaşamır. Dövlətimizin dəstəyi ilə fermerlərin səmərəli fəaliyyəti üçün əkin-biçin ərazimizə yaxın yerdə artezian quyusu qazılıb. Biz də bu sudan rahat şəkildə istifadə edirik. Təcrübəmə əsaslanıb deyim ki, taxıl susevərdi, payızda əkilən ərazini məhsul yığımınadək 5 dəfə suvarmalısan. Təzə əkiləndə torpaq, cücərəndə ikinci, boy göstərəndə üçüncü, daha sonra isə çiçək və dən suyu verilir.

Təcrübəli təsərrüfatçı qeyd edir: – Məhsuldarlığın yüksək olması üçün ərazini vaxtlı-vaxtında suvarmaqla yanaşı, əkində keyfiyyətli toxumdan istifadə etmək, eyni zamanda gübrələmə prosesini düzgün aparmaq da vacibdir: – Əvvəllər bir neçə buğda sortunu əkib-becərsəm də, artıq iki-üç mövsümdür ki, Türkiyədən gətirdiyim “Ceyhan 99”a üstünlük verirəm. Keyfiyyətinə söz ola bilməz, zərərvericilərə qarşı da dözümlüdür. Ancaq, necə deyərlər, işini etibarlı tutmaqda fayda var, vaxtı çatanda gübrəni verməlisən. Dövlətimiz var olsun ki, təsərrüfatçıları gübrə ilə təmin edir. Əlavə subsidiya da verilir ki, bu da torpağı şumlamaqda, biçində, tədarükdə kifayət qədər maddi dəstək olmaqla bizi taxılçılığa daha da həvəsləndirir. İstehsal etdiyim məhsulun bir qismini həyətimizdə bəslədiyimiz toyuq-cücə üçün saxlayır, qalanını isə Arpaçayın kənarında yerləşən dəyirmanda üyüdərək un kimi məişətdə istifadə edirik. Sağ olsun dövlətimizi ki müşavirədə əməyimizə qiymət verdi, fəxri fərmana layiq görüldüm. Öz təcrübəmi digər təsərrüfatçılarla paylaşdım. Orada da qeyd olunduğu kimi, başa çatan mövsümdə ən yüksək nəticəni bizim təsərrüfat göstərib, 0,47 hektar ərazidən 5 ton məhsul əldə etmişəm. Məhsuldarlıq 106,4 sentner olub. Müqayisə üçün bildirim ki, keçənilki nəticə bundan az idi. İnanıram ki, gələn mövsümlərdə daha çox məhsul istehsal edib həm ailə büdcəmizi zənginləşdirəcək, həm də rayon iqtisadiyyatına töhfə verə biləcəyik.



***Zaur Cəfərov*** Babək rayonunun Kərimbəyli kəndində yaşayır. Ailə təsərrüfatçısıdır. Kiçik yaşlarından atası Musa kişidən əkinçiliyin qaydalarını görüb-götürüb. İndi də çətinliyə, dara düşən kimi valideynindən məsləhət alır. Cari mövsümdə rayonun uğur qazanan təsərrüfatçılarından olan zəhmətkeş insan fəaliyyəti barədə deyir: – Bəzən birinin xarakteri barədə soraq alanda, “yolyoldaşı olmamışam nə deyim” cavabı verilir. Fikrimcə, bu nümunəni təsərrüfat işinə də aid etmək olar. Yəni uğur qazanmaq üçün bu yolda bir xeyli addımlamalı, zamanla işin dilini, yolunu, nəyin doğru, nəyin yanlış olduğunu öyrənməlisən. Kiçik uğursuzluğa görə də qətiyyən həvəsdən düşmək olmaz. Əsas odur ki, təcrübədən düzgün nəticə çıxarmağı bacarasan. Mən bu işə başladığım ilk zamanlarda çətinlik çəksəm də, vaxt ötdükcə əkin-biçinə daha dərindən bələd olmağa çalışmışam. Məhsuldarlığın yüksək olduğu mövsüm də çox olub, aşağı olanı da. Öyrənə-öyrənə bugünkü nəticəyə nail olmuşam. Ümumilikdə, 4-ü özümün, 4-ü icarə olmaqla, 8 hektar sahədə əkin işləri görürəm. Təcrübəyə arxalanıb deyə bilərəm ki, əkinçilikdə yaxşı məhsul əldə etmək istəyirsənsə, birinci görülməli iş şumdan qabaq torpağı yaxşıca qüvvətləndirməkdir. Mən özüm hər il yaxşı məhsul əldə etməkdən ötrü əraziyə xeyli miqdarda quş peyini verirəm. Elə buna görədir ki, cari mövsümdə 2 dəfə suvarma aparmaqla yüksək nəticə əldə etmişəm. Suvarmanın azlığı, təbii ki, mövcud şəraitdən asılıdır. Yəni bu gün hamıya yaxşı məlumdur ki, Babək rayonunda su cəhətdən qıtlıq halları hökm sürür. Düzdür, ərazimdə öz hesabıma 2 artezian quyusu qazdırmışam, ancaq təbii olaraq quyu suyu axar suyun effektini vermir. Toxum olaraq isə “Ceyhan 99”dan istifadə edirəm. Məhsuldar buğda sortudur. Ərazidə buğda ilə yanaşı, qoyun-quzunu yaxşı bəsləməkdən ötrü arpa və yonca da əkirəm. Ümumilikdə, məhsuldarlıq ürəyimcədir. Cari mövsümdə 7 ton arpa, 10 ton buğda və 700 kip yonca tədarük etmişəm.

Fermer bildirir ki, dövlətimiz tərəfindən hər hektara görə subsidiyanın verilməsi, eləcə də gübrə ilə təminat maddi cəhətdən işini xeyli yüngülləşdirib: – Bu gün kəndlinin məhsuldar fəaliyyəti üçün bütün lazımi şərait yaradılıb. Toxuma, şuma, biçinə xərclədiyin vəsaiti dövlət qarşılayır, geridə qalan tək problem, çətinlik su ilə bağlıdır. O da ki bütün dünyada vardır, qlobal məsələdir. Texnika barədə müraciətimizə də müsbət cavab verilib. İnanıram ki, növbəti mövsümlərdə məhsulumuz daha da bol və keyfiyyətli olacaq. Fürsətdən istifadə edib, əməyimizi yüksək qiymətləndirdiyinə görə dövlətimizə bir daha öz minnətdarlığımı bildirirəm.

*Əsrlərin sınağından keçib öz təsdiqini tapmış “İş insanın cövhəridir”, “Əmək insanı ucaldır” ifadələri vətəndaşının kiçik əməyini yüksək qiymətləndirən dövlətimiz və Tağı Məmmədov, Zaur Cəfərov kimi nümunəvi təsərrüfat fəaliyyətləri ilə məşğul olan halal zəhmətkeşlərin sayəsində bu gün də prinsipiallığını, aktuallığını qoruyub saxlayır. Növbəti mövsümlərdə də bu prinsiplə daha çox təsərrüfatçının böyük uğurlar, nailiyyətlər əldə etməsi arzusu ilə...*

✍ **Nail ƏSGƏROV**

# Gələcəyin ixtiraçı alimləri olmaq yolunda uğurlu addımlar

*Son illər ölkəmizin təhsil siyasətindəki müasir yanaşmalar bu sahədə yeni uğurlara yol açıb. İnkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin, olimpiadaların həyata keçirilməsi şagirdlərin bilik və bacarıqlarının ortaya çıxarılması, dünyagörüşünün artırılmasında mühüm rol oynayır. Məhz 1-3 sentyabr tarixlərdə Bakı şəhərində keçirilən VI Robot Olimpiadası da bu layihələrdən biri idi. Olimpiadada 8 yaşdan 19 yaşadək yeniyetmə və gənclər "Robomission", "Robosports", "Future innovators", "Future engineers" olmaqla, 4 kateqoriya üzrə 160 komanda şəklində iştirak etdilər. Olimpiadanın final mərhələsində Naxçıvanı STEAM təhsili üzrə müvəffəqiyyət qazanan məktəblilərdən ibarət "Young inventors", "Deusra", "Fourtune" adlı komandalar təmsil etdi. Olimpiadanın yekununda təmsilçimiz "Deusra" komandası "Robosport" kateqoriyası üzrə qalib olaraq 7-9 noyabr tarixlərdə Panama Respublikasında keçiriləcək Dünya Robot Olimpiadasında ölkəmizi təmsil etmək hüququ qazandı. Biz də qalib komandanın üzvləri Abbas Zeynalov, Hüseyn Tahirov və Oğuz Nəcəflinin təəssüratlarını öyrəndik.*

***Abbas Zeynalov*** Naxçıvan şəhərində anadan olub. Şəhərimizdəki 8 nömrəli tam orta məktəbdə təhsil alır. O, uğurlarından danışaraq dedi: – "SAF 2022"də "Robomisson" kateqoriyası üzrə üçüncülük, "WRO-2023" də isə "Robosports" kateqoriyası üzrə birincilik əldə etmişəm və Naxçıvan üzrə olan yarışlarda da iştirak edib yer tutmuşam. 3 ildir ki, STEAM təhsil metodu üzrə biliklərimi artırıram, bir sıra olimpiada və yarışlarda iştirak edirəm. Robot olimpiadasında isə ilk dəfədir, iştirak edirdim. Əvvəlcədən bu kimi yarışlarda olmağıma baxmayaraq, içimdə böyük həyəcan var idi. Burada müəyyən təcrübələr əldə etdim, hansı ki bunlardan ən əsası diqqətli olmaq və zamandan düzgün istifadə idi. Çünki yarışda etdiyimiz cuzi bir qayda pozuntusu və ya robotda etdiyimiz kiçik bir səhv işimizə mənfi təsir göstərə bilərdi. Layihəmiz "Robosports" kateqoriyası üçün təyin edilmiş 2 robot idi. Robotların yarışdığı arena 2 hissəyə bölünmüş, hər iki tərəfdə 1 komanda olacağı müəyyənləşdirilmişdi, hər komandada 2 robot yarışırdı və oyun başladıqda hər iki komandaya 4 top verilirdi. Yarışın əsas məqsədi qoyulan vaxt ərzində topları digər komandanın sahəsinə atmaq idi və sonda hansı komandanın sahəsində az top qalırdısa, qalib sayılırdı. Bizim robot səhvsiz şəkildə bütün tapşırıqları yerinə yetirdi. Bunun səbəbi robotumuza etdiyimiz dizayn və kodlaşdırma idi. Qalib olmağımızın əsas səbəbi isə komandamız arasında olan dostluq və birlik idi ki, birbirimizə inanırdıq və dəstək olurduq. Hazırda Panamada keçiriləcək final yarışına güclü hazırlıqlar gedir, oradan da qələbə ilə qayıdacağımıza inanırıq.




***Hüseyn Tahirov*** Ordubad şəhərində doğulub, Ordubad şəhər tam orta internat məktəbində təhsil alıb. Onun dediklərindən: – Məktəbdə keçirilən sınaq imtahanlarında 680-700 arası bal toplayırdım. VII sinifdə oxuyarkən STEAM təhsilinə ilk addımımı atdım. Sərbəst layihə üzrə Ordubad rayon komandasının, Mancanaq robot üzrə isə Ordubad Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin üzvü olaraq II yerə sahib çıxmışam. Həmçinin Ordubad şəhər tam orta internat məktəbinin şagirdi kimi "STEAM təhsil festivalı"nda III yerə layiq görüldüm. VIII sinifdə isə "3D bacarıqlar mexatronika" yarışında I, "SAF 2022"də nominasiya üzrə II, "Labirint robot" yarışı üzrə II, "Microbitlə kodunu yaz" layihəsi üzrə yarışda I yerin qalibi oldum. Həmçinin sınaq imtahanlarında muxtar respublika üzrə II və III yerlərin sahibi kimi, "İlin şagirdi" seçilmişəm. 40-a yaxın diplom, sertifikat və fəxri fərmanım, 8 medalım var. VI Robot Olimpiadasında qazandığımız qələbə növbəti uğurlarımdan biridir. Ciddi səylə çalışırdıq ki, Azərbaycanımızı Panamada təmsil edənlər sırasına çıxaq. STEAM Təlim-Tədris Mərkəzində məşqlərimizi edə bildik. Bakıda yarış zonasında bir-birindən güclü komandalar ilə rastlaşdıq. Komandada bir yerdə işləməyi, yeni strategiyaları öyrəndik, sürətli düşüncə tərzini mənimsədik. Qalib olmağımız bizə çox böyük bir qürur hissi yaratdı. Burada müəllimlərimizdən Fuad Babayev və Ələkbər Əliyevin böyük rolu oldu. Onlara minnətdarıq.

***Oğuz Nəcəfli*** Culfa rayonunun Xanəgah kəndində doğulub. Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdidir. Onun dediklərindən: – 2022-ci ildə nümunəvi davranış və təhsildə qazandığım uğurlara görə "İlin ən fəal şagirdi" nominasiyası üzrə təltif edilmişəm. Həmin il "Sabahın tədqiqatçıları" layihəsində fizika fənni üzrə layihə təqdim etmişəm, "STEAM təhsil festivalı"nda "Labirint robot" kateqoriyası üzrə III, "Edu Drone" kateqoriyası üzrə isə I yeri tutmuşam. İstanbul Universiteti tərəfindən keçirilən "Lise yaz okulu" proqramında iştirak edərək uğur qazanmışam. Bu il muxtar respublika məktəbliləri arasında keçirilən respublika fənn olimpiadasında informatika fənni üzrə II yer tutmuş, 2 fevral – Gənclər günü münasibətilə təhsil sahəsindəki xüsusi nailiyyətlərimə görə təltif olunmuşam. STEAM təhsili üzrə keçirilən Mikrobit kodlaşdırma ilə "Kodunu yaz-layihəni yarat" müsabiqəsində II yerə çıxmış, "Sabahın alimləri" 12-ci respublika müsabiqəsində mühəndislik nominasiyası üzrə layihə təqdim etmiş, "Fizika, riyaziyyat və astronomiyanın aktual problemləri" mövzusunda III Respublika elmi konfransında məruzə ilə çıxış etmiş, "Sabahın tədqiqatçıları – 2023" layihəsində fizika fənni üzrə layihə təqdim etmişəm. İyunun 9-da keçirilən STEAM təhsili üzrə "EDU DRONE" müsabiqəsində II yeri tutmuşam. Uşaqlıqdan elektronika və robotlara marağım və xəyalımdakı layihələri reallaşdırmaq istəyim olub. Naxçıvanda STEAM təhsil metodunun tətbiqi xəyallarımı gerçəkləşdirməkdə mənə kömək oldu. Əlbəttə, müəllimlərim də mənə çox böyük dəstək verdilər və hər birindən müxtəlif biliklər əldə etdim. İndiyə kimi çox layihəm olub. "Minaaxtaran dron" layihəmi ilk dəfə "Sabahın alimləri" respublika müsabiqəsinə təqdim etdim və ölkə daxilində çox bəyənildi. "Teknofest Azərbaycan" festivalında təqdim etdiyim kəşf robotu da bu layihədə uğurlu oldu. Bu il "Sabahın alimləri" müsabiqəsinə hazırladığım "weapon cooling system" (silah soyutma sistemi) layihəm diqqət çəkib.

1-3 sentyabr 2023-cü il tarixlərdə keçirilən VI Robot Olimpiadasında "Robosports" kateqoriyası üzrə qalib olmağımız isə bizə daha böyük qürur yaşatdı. Bu yarışı qazanmaqda müəllimlərimizin bizə verdiyi tövsiyələr və motivasiya çox kömək oldu. İnanırıq ki, Panama Respublikasında da Naxçıvanımızı layiqincə təmsil edəcəyik.

*Məktəblilərimizin qazandığı nailiyyətlər bizi də sevindirir. Onlara ölkəmizi, Naxçıvanımızı xaricdə təmsil etmək yolunda daha böyük uğurlar arzu edirik.*

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Mədəniyyət Nazirliyinin yeni "nculture.gov.az" saytının təqdimat mərasimi keçirilib

Naxçıvan Dövlət Filarmoniyasında keçirilən təqdimat mərasimində çıxış edən mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Seyidov bildirib ki, ölkəmizdə informasiya və kommunikasiya texnologiyalarının inkişafı, heç şübhəsiz, milli mədəniyyətimizin inkişaf strategiyasının həyata keçirilməsinə öz müsbət təsirini verməkdədir. Yeni sayt Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının dövlət qurumlarında müasir informasiya texnologiyalarından istifadənin, həmçinin informasiya təhlükəsizliyinin təşkili və təmin edilməsinə dair 2023-cü il üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən müasir texnologiyalardan istifadə olunmaqla yenilənib.



Yeni rəsmi saytın istifadəyə verilməsinin informasiya siyasətinin düzgün qurulmasına, vətəndaş müraciətinin əlçatanlığına xidmət etdiyini bildirən Həsən Seyidov əlavə edib ki, müasir tələblərə cavab verən yeni internet səhifəsi nazirlik və media resursları ilə qurulan əlaqələrin təkmilləşməsinə öz müsbət təsirini göstərəcək. Yeni veb-sayt nazirlik tərəfindən atılan addımların, həyata keçirilən layihələrin ictimaiyyətə daha operativ və dolğun çatdırılması ilə yanaşı, Naxçıvanın mədəni həyatının güzgüsünə də çevriləcək.

Sonra Mədəniyyət Nazirliyi Aparatının informasiya resurslarının idarə edilməsi üzrə aparıcı məsləhətçisi Anar Təhməzli saytın tərtibatı, imkanları, istifadə qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, 8 əsas bölmədən ibarət olan yeni saytda 50 altbölmə olmaqla, ümumilikdə, 215 aktiv bölmə fəaliyyət göstərəcək. Qeyd olunan bölmələrdə muxtar respublikanın tarixi, təbiəti, flora və faunası, Naxçıvan şəhəri və rayonların tarixi və bu günü, nazirliyin tabeliyində fəaliyyət göstərən müəssisələr haqqında məlumatlar əks olunacaq. Bundan əlavə, rəsmi saytda muxtar diyarın tarix-mədəniyyət abidələri, xalq yaradıcılığı, milli mətbəxi, sənətkarlığı, teatrı, musiqisi, ədəbiyyatı, memarlığı, həmçinin ölkəmizdə mədəniyyətin inkişafına hesablanmış qanunvericilik bazası, hesabatlar, elan və afişalar yer alır. Saytda yer alan "Elektron müraciət" bölməsi hər kəsə asanlıqla təklif və rəylərini nazirliyə ünvanlamaq imkanı yaradır. Həmçinin nazirlik *www.nculture.gov.az* domeninə bağlı daha təhlükəsiz *office@nculture.gov.az* mail adresi ilə təmin olunub.

Təqdimat mərasiminin sonunda *"nculture.gov.az"* saytı haqqında videoçarx nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Ötən ay Naxçıvanda muzeyləri 42 min 567 nəfər ziyarət edib

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi 2023-cü ilin avqust ayında öz fəaliyyətini nazirliyin iş planına uyğun qurmuş, müvafiq fərman və sərəncamlardan, qəbul edilmiş Dövlət proqramlarından irəli gələn vəzifələr icra edilmişdir. Ay ərzində nazirlik tərəfindən müxtəlif tədbirlər, konsert proqramları, kitab və film təqdimatları keçirilmiş, əlamətdar və tarixi günlər qeyd olunmuş, insanların mədəni istirahətinin təmin edilməsi diqqətdə saxlanılmışdır.

"Heydər Əliyev İli" çərçivəsində nazirliyin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş albom-kataloqun hazırlanması və "Əl işləri sərgi-müsabiqəsi"nə ərizə qəbulu davam etdirilmişdir. "Heydər Əliyev İli" ilə bağlı avqust ayı ərzində, ümumilikdə, 12 tədbir keçirilmiş, 1 sərgi qurulmuşdur.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası ərazisində arxeoloji qazıntılar aparan və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədilə onlarla təmasda elmi-tədqiqat işlərini yerinə yetirən şəxslər tərəfindən aparılmış tədqiqat işləri barədə hesabat verilməsi Qaydası"na əsasən Naxçıvan Muxtar Respublikasının ərazisində arxeoloji qazıntıların aparılmasına nəzarət edilmişdir.

Ötən ay nazirlik tərəfindən Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlılardan yer-yurd adlarının, folklor nümunələrinin toplanması diqqətdə saxlanılmış, işin təşkili ilə bağlı seminar keçirilmiş, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası tərəfindən Qərbi Azərbaycanla bağlı kitabxanaçı tövsiyəsi hazırlanmışdır. Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin əməkdaşları tərəfindən Kəngərli rayonunun Çalxanqala və Babək rayonunun Kərimbəyli kəndlərində yaşayan Qərbi Azərbaycandan olan sakinlərdən Qərbi Azərbaycan folkloru və toponimləri ilə bağlı nümunələr toplanmışdır.

Avqust ayında nazirliyin təşkilatçılığı ilə "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü", "2 avqust – Azərbaycan Kinosu Günü" geniş qeyd olunmuş, görkəmli fırça ustası İbrahim Səfiyə həsr edilmiş "Rəngləri danışdıran adam" kitabının və eyniadlı filmin təqdimatı keçirilmişdir. Bundan əlavə, "Heydər Əliyev-100" devizi ilə təşkil olunan Diaspor gənclərinin IV Yay Düşərgəsinin Heydər Əliyev Sarayında açılış və "Duzdağ" otelində bağlanış mərasimlərində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının konsert proqramları alqışlarla qarşılanmışdır. Qeyd edək ki, filarmoniyanın kollektivlərinin "18 sentyabr – Milli Musiqi Günü" ilə bağlı konsert proqramlarının hazırlıq məşqlərinə start verilmişdir.

Yeni teatr mövsümünə hazırlaşan teatr müəssisələrində – Cəlil




Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında repertuarda olan tamaşaların bərpa məşqləri, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında V.Haqverdiyevin "Qarınqulu ayı balası", Naxçıvan Dövlət Uşaq Teatrında isə T.Seyidovun "Şir ağa və yumruçanaq tısbağa" tamaşasının məşqləri aparılmışdır.

Avqust ayında muzeylərin fəaliyyəti də nəzarətdə saxlanılmış, lazımi əməli və metodiki köməklik göstərilmiş, nümunəvi muzey xidməti göstərilməsinə diqqət artırılmış, muzey əməkdaşlarının peşə biliklərinin artırılması, təcrübə mübadiləsinin aparılması məqsədilə seminar-treninq təşkil olunmuş, sakinlərlə muzey əməkdaşlarının görüşləri keçirilmiş, müxtəlif tədbirlər gerçəkləşmişdir. Ay ərzində muzeyləri 25 min 99 nəfər yerli, 17 min 468 nəfər əcnəbi olmaqla, ümumilikdə, 42 min 567 nəfər ziyarət etmiş, muzeylərə 213 yeni eksponat daxil olmuşdur.

Avqust ayında kitabxanalarda keçirilən tədbirlərin səmərəliliyinə nəzarət artırılmış, mərkəzləşdirilmiş kitabxana sistemlərinin kitabxanaçıları arasında reallaşan "İntellektual kitabxanaçı" bilik müsabiqəsinin qalibləri bəlli olmuş, onlar nazirliyin diplomları ilə təltif edilmişlər. Həmçinin ay ərzində kitabxanalarda yubileylər, əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmiş, sərgilər qurulmuşdur.

Avqust ayında A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən 1 və MKS-lərin uşaq kitabxanaları və şöbələri tərəfindən 26 nəfər olmaqla, ümumilikdə, sağlamlıq imkanı məhdud 27 uşağa səyyari kitabxana xidməti göstərilmişdir. Kitabxanalarda yeni oxucu sayı 1014, oxucu gəlişi 8 min 600, kitab verilişi isə 55 min 114 nüsxə olmuşdur. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında elektron kataloqa 646 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 36 min 90-a çatdırılmışdır.

Həmçinin ötən ay klub müəssisələri, mədəniyyət üzrə Elmi-Metodik Mərkəz tərəfindən Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərlərinin təbliği və yaşadılması istiqamətində iş aparılmış, əlamətdar tarixi günlər, görkəmli şəxsiyyətlərin ildönümləri ilə bağlı tədbirlər keçirilmişdir.

Nazirliyin nəzdində fəaliyyət göstərən "Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi"ndə muxtar respublika sənətkarları ilə suvenirlərin və hədiyyəlik xatirə əşyalarının hazırlanması məqsədilə bağlanmış müqavilələrə əsasən ay ərzində 1500 manatlıq 14 adda 125 ədəd iş satılmışdır.

Naxçıvan Dövlət Film Fondu tərəfindən filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi və lentlərin təmizlənməsi işləri davam etdirilmiş, film nümayiş olunmuşdur.

Avqust ayında nazirliyin və tabeli müəssisələrin sosial şəbəkə hesablarında mütəmadi olaraq paylaşımlar edilmiş, keçirilən tədbirlərin KİV-də işıqlandırılması diqqətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Muxtar diyarımızda insanların pənah gətirdiyi müxtəlif ziyarətgahlar var. Bunlardan biri də “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksidir. Bura təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. Ziyarətgaha üz tutan yerli sakinlər və qonaqların diqqətini çəkən bu əsrarəngiz məkana gəlmişkən oxucularımız üçün yazı hazırlamağı da qərara aldıq. Əvvəla onu diqqətə çatdıraq ki, Əshabi-kəhfə istiqamətlənən sıx ağaclarla əhatə olunmuş abad yol ilk baxışdan ziyarətçilərdə xoş ovqat yaradır. Dörd bir tərəfdən qayalarla əhatə olunmuş nəhəng dağın arasında qərar tutmuş bu təbii abidənin bələdçisi buraya gələn qonaqları qarşılayaraq ziyarətgah haqqında ətraflı məlumat verir. Bu müqəddəs ziyarətgaha bələdçilik edən Əkbər Məmmədli ilə elə iş başında həmsöhbət olduq.*

## Dağlar qoynundakı pənah yerimiz – *Əshabi-kəhf*



Öyrəndik ki, Əshabi-kəhf – Culfa rayonunda yerləşən bu təbii mağara Şərqin ən məşhur mağaralarından, eyni zamanda Azərbaycanın ən böyük ziyarətgahlarından biri hesab edilir. Buranın adı İslam dininin müqəddəs kitabı olan “Qurani-Kərim”in “Əl-kəhf” surəsində çəkilir. Aparılan tədqiqatlar göstərir ki, hələ yüz illər bundan əvvəl mağara qədim türklərin müqəddəs sitayiş yeri olub, hələ ibtidai icma quruluşu dövründə insanlar buradan sığınacaq kimi istifadə ediblər. “Qurani-Kərim”in adıçəkilən surəsində əksini tapmış rəvayətə görə, Allaha inanan bir dəstə gənc dövrün zalım hökmdarının təqiblərindən yaxa qurtarmaq üçün bu mağarada gizlənmişlər. Allah onları yuxuya qərq etmiş, bir neçə yüz ildən sonra oyatmış, lakin gənclər özlərinə yad dünyanı görüb, yenidən əbədi yuxuya getməyi diləyiblər. Muxtar diyarımızın ərazisində yayılmış rəvayət də eyni məzmunu daşıyır.



Müsahibimiz onu da qeyd edir ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə burada abadlıq-bərpa işləri aparılıb, insanların bu müqəddəs məkanı rahat ziyarət etməsi üçün hər cür şərait yaradılıb, 13 kilometr məsafədə abad yol salınıb, ibadət üçün məscid tikilib, kitabə qoyulubdur.

Əkbər Məmmədli deyir ki, dünyanın bir sıra bölgələrində “Əshabi-kəhf” adı ilə tanınan mağaralar vardır ki, onların da “Qurani-Kərim”də adı keçən mağara olduğu iddia edilir. Mağaranın yerləşdiyi yerin xüsusiyyətləri adıçəkilən surənin 17-ci ayəsində belə açıqlanır: “Baxsaydın, Günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin”. Mağaranın içərisinə girəcəkdən baxarkən girişdən sağ və sol nəzərdə tutulur, məhz “Əshabi-kəhf”də içəri girən (baxan) adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. Bu isə mağaranın məhz Naxçıvanda olmasını sübut edən amillərdən biridir. “Beləcə, insanları onlardan xəbərdar etdik ki, Allahın vədinin haqq olduğunu, qiyamətin şübhə götürməz olduğunu bilsinlər. Bu sırada onlar aralarında “Əshabi-kəhf”in vəziyyətini araşdırırdılar. Dedilər ki, “Üzərlərinə bir bina tikin. Rəbbləri onları daha yaxşı bilir”. Onların vəziyyətinə vaqif olanlar isə “Bizlər kəsinliklə onların yan başlarında bir məscid tikəcəyik” – dedilər”. “Əshabi-kəhf”də yer alan indiki məscid də qeyb olanların yaxınlığındadır. Müqəddəs ocaq sayılan bu ziyarətgahda inanca görə, “Damcıxana” adlanan hissə qəlbində arzusu, niyyəti olan insanların ümid yeri hesab edilir. Maraqlıdır ki, ilin yağışlı və quraq keçməsindən asılı olmayaraq, burada damcı kəsilmir. Bu məqamda hər cür niyyət etmək olar. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez hasil olacağı, aşağı ətraflara, bədənin hər hansı bir yerinə düşməsi isə nisbətən gec hasil olacağı kimi yozulur. Damcı düşməsə, deməli, niyyət qəbul olmur.

Abidənin hər bir guşəsinə, əsasən də ziyarətdə adıçəkilən hissəyə baxdığımız zaman görürük ki, mağara divarlarının bir hissəsində izlər var. Bu sanki divara söykənmiş insan izləridir ki, onlar da el arasında “Yeddi kimsənə” adlanır. El arasında yayılmış rəvayətlərdə də deyilir ki, bu izlər elə müqəddəs kitabımız “Qurani-Kərim”də deyildiyi kimi, zalım hökmdarın zülmündən Allaha sığınan bir dəstə gəncə məxsusdur. Ümumiyyətlə, “Əshabi-kəhf”i ziyarət zamanı bir neçə əməl var ki, onların icrasına insanlarda güclü inam var. Bunlardan “Əshabi-kəhf”ə piyada ziyarətə getmək, orada qurban kəsmək savab əməl hesab olunur. Mağaranın daxilindəki məscidə, oradan da “Cənnət bağı”na çıxan yolun solundakı qayada təbii oyuq var. Qəlbində arzusu, niyyəti olanlar bu oyuqdan keçib həmin qayanın başına üç dəfə dolanırlar. Məscidin qabağındakı “Qaradaş”ın və “Damcıxana”nın ziyarət edilməsi əsas məqamlardan hesab olunur. Buranı ziyarət edən yaşlı insanlardan öyrənirik ki, hələ lap qədim zamanlardan ağır xəstəliyi olan insanlar niyyət edib “Qaradaş”ın yanında yatarmışlar. Bir sıra xəstələrin buradan nicat tapıb qayıtması söylənilir. “Qaradaş” ziyarətgahının sol hissəsində tarixi məscid də yerləşir ki, buranı namaz qılanlar və nəziri olanlar ziyarət edirlər. Məscidin içərisində üzərində müqəddəs kitabımız “Qurani-Kərim”dən müxtəlif ayələrin yazıldığı iki kitabə də var.

Müsahibimiz qeyd edir ki, insanlar ziyarətgah və onun ətrafında daha iki yerdə su inamı ilə qarşılaşırlar. Bunların biri təmizlənib müalicə olunma, ikincisi “Əshabi-kəhf”in girəcəyindəki kiçik hovuz-bulaqdı. İnsanlar suyun şəfaverici və müqəddəsliyini nəzərə alaraq içir və xörək hazırlayırlar. Bulaq “Yeddi kimsənə”nin aşağı tərəfindən çıxdığı üçün daha da müqəddəs hesab edilir. Ziyarətgahda ən uca məqam “Cənnət bağı” adlanan yerdir. Əvvəllər bura çıxmaq insanlar üçün çox çətin idi. İndi isə abadlaşdırılaraq dəmir pilləkənlərlə yol salınıb. Buraya gündoğana doğru qayaların arası ilə dar keçid qalxır. Keçidin baş tərəfində, sıldırım qayada bir dağdağan ağacı bitib. Həmin ağaca dilək üçün parçalar bağlanılır.

Həmsöhbətimiz Əkbər Məmmədli onu da vurğuladı ki, ilin hər fəslində dünyanın dörd bir yanından qonaqlar buranı ziyarət etmək üçün gəlirlər. Naxçıvana ayaq qoyan hər kəs buranı ziyarət etmədən getmir. Onlar bu dini ziyarətgahın tarixini öyrəndikləri zaman isə İslam dininə olan inancları daha da artır.

*Biz də bir yerli sakin olaraq buranın tarixi haqqında məlumatları siz oxucuların da diqqətinə çatdırmaq istədik. Allah bura gəlib qurbanlar kəsən, dualar edən hər kəsin ziyarətini, qurbanını, duasını qəbul etsin.*

✍ **Bülbül QULİYEVA**

*Əfsanəyə dönən ömürlər*

## Şəhidlik zirvəsi elə bir yerdədir ki, oradan Vətən görünür



Zaman-zaman əsrlərin sınağına tab gətirmiş Azərbaycan xalqı bu dəfə də sınaqdan mərdmərdanə çıxdı. Xalqımızın mərd oğulları 44 gündə 30 illik həsrətə son qoydu. Ana oğlunu, əlindən xınası getməyən gəlinlər ərini, nişanlısının vüsalına qovuşacağı günü həsrətlə gözləyən qızlar sevgililərini, ağzı süd qoxulu körpələr atalarını, dağ vüqarlı atalar övladlarını Vətənə qurban verdilər, lakin vüqarlarını, dəyanətlərini itirmədilər. Yüzlərlə qəhrəman öz həyatını xalqımızın azadlığı, ərazi bütövlüyü uğrunda qurban verdi. Xalq elliklə Vətən torpağının müdafiəsinə qalxdı. Torpağımızın igid oğulları Azərbaycanın közərən yarasına məlhəm olmaq üçün cəbhəyə tələsdi. Kimisi çiyinlərdə bayrağa bükülmüş, kimisi isə çiynində bayraqla döndü yurduna qələbə müjdəsi ilə. Şəhid, qazi olmaq şərəfinə layiq görüldülər. Tanrının süfrəsinə qonaq olub, bu xalqın qəlbində əbədiyyət alovu yandırdılar. Onlardan biridir Şərur elinin qəhrəman övladı Kamal Əbilov.

Əbilov Kamal Vidadi oğlu 1996-cı ilin mayında Şərur rayonunun Oğlanqala kəndində dünyaya göz açmışdı. 2004-cü ildə Oğlanqala kənd tam orta məktəbində ilk təhsilinə başlayan Kamal 2011-ci ildə hərb sənətinin təməl biliklərinə yiyələnmək üçün Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdu. 2014-cü ildə bu təhsil ocağını bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olaraq təhsilini davam etdirən Kamal 2018-ci ildə AAHM-i bitirir, Kamal leytenant rütbəsi alaraq N hərbi hissədə fəaliyyətə başlayır. Vətən müharibəsi zamanı Murovdağ istiqamətində döyüşərək şəhid olub. Şərur şəhəri Şəhidlər xiyabanında dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən “Vətən uğrunda”, “İgidliyə görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

O, Vətən müharibəsində bir ovuc torpağı canından əziz bilib qurban oldu Vətənə. İllərdir, həsrətində olduğumuz qələbə xəbəri ilə qayıtdı yurdumuza. Şərur şəhərindəki Şəhidlər xiyabanında onun məzarı başında dayanmışam, indi lal baxışlar mənə baxır. Şuşa dağlarına yayılan “Qarabağ şikəstəsi”nin səsini duyduqca, Ağalıya qayıdan köçü, orada doğulan körpənin səsini eşitdikcə, xalqımızın vaxtilə başına gətirilən müsibətlərin qisasını alan oğullardan biri olduğum üçün qürur duyuram, – deyir bu baxışlar mənə. Bir-bir ziyarət edib, baş əyirəm Vətən oğullarının məzarları önündə.

Deyirəm ki, sizin dünyaya yumulan gözləriniz Qarabağımızın gözlərinə işıq verdi. İllərdir, sönən ocağımız alovlandı, azan səsinə həsrət qalan torpağımızın qulağı bu müqəddəs səsi eşitdi. Üçrəngli, ay-ulduzlu bayrağımız sizin kimi oğulların əllərində işğaldan azad edilən torpaqlarda dalğalandı. Onlar ən yüksək zirvəyə – şəhidlik zirvəsinə yüksəldilər, o zirvənin başında isə Azərbaycan bayrağını dalğalandırdılar. O bayraq ki o enməsin deyə yüzlərlə igid öz canından keçmişdi. Və bu gün o bayraqlar şəhid məzarlarının başı üstə qürurla keşik çəkir, onların ziyarətçilərini salamlayır.

✍ **Ramiyyə ƏKBƏROVA**

## “İnnovativ müəllim” təliminə start verilib



Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən yeni işə qəbul olunan müəllimlər üçün STEAM Təlim-Tədris Mərkəzində üçgünlük “İnnovativ müəllim” təliminə start verilib. Təlimə ümumtəhsil müəssisələrinə vakant vəzifələrə işə qəbul üçün elan edilmiş müsabiqənin 3-14 iyul tarixlərdə keçirilən test imtahanlarında müvəffəqiyyət qazanaraq yeni fəaliyyətə başlayacaq gənc müəllimlər cəlb olunub.

Təlimlərdə “İnnovativ müəllim necə olmalıdır?”, “Müəllimin hüquq və vəzifələri”, “Səmərəli təlim mühitinin yaradılması”, “Müəllimlərin etik davranış qaydaları”, “Müəllim, şagird və valideyn münasibətlərinin tənzimlənməsi”, “Perspektiv planlaşdırma, cari planlaşdırma və sinif jurnalının aparılması qaydaları”, “Sinfin idarə olunması” və digər mövzularda məlumatlar verilib.

Qeyd edək ki, müxtəlif mövzular üzrə təşkil olunan təlim gənc müəllimlərin fəaliyyətlərini düzgün qurmalarına müsbət təsir göstərəcək, sonda iştirakçılar sertifikatla təmin olunacaq.

Məlumat üçün bildirək ki, 2023-2024-cü tədris ili üçün müsabiqəyə müxtəlif ixtisaslar üzrə 200 vakant yer çıxarılmışdır. Elan olunan vakansiyaya 1352 namizəd qeydiyyatdan keçmişdir. 3-14 iyul tarixlərdə keçirilən işə qəbul imtahanlarında 966 namizəd keçid balını toplamış, onlardan ən yüksək nəticə göstərən 135 nəfər təhsil müəssisələrində işləmək hüququ qazanmışdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Dövlət satınalmalarında iştirak edən sahibkarların nəzərinə!

Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə tələb olunan sənədləri elektron qaydada əldə etmək üçün innovativ yeniliklərin tətbiqi, xidmət sferasının genişləndirilməsi və prosedurların optimallaşdırılması ilə istifadəçilərin məmnunluq səviyyəsinin artırılması prioritet əhəmiyyət kəsb edir.

Bu məqsədlə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2.5-ci maddəsində nəzərdə tutulan Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən sahibkarlara verilən arayış elektronlaşdırılıb.

Dövlət satınalmalarında iştirak edən sahibkarlara qeyd olunan arayışın dövlət satınalmalarının vahid internet portalı *(etender.gov.az)* vasitəsilə verilməsi üçün inteqrasiyanı yekunlaşdırıb.

Sentyabrın 1-dən etibarən *“etender.gov.az”* portalında açıq tender və ya kotirovka sorğusu metodunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən satınalmalarda iştirak edən sahibkarlar tərəfindən müvafiq arayışın alınmasına dair müraciət yalnız portal vasitəsilə həyata keçiriləcək və real vaxt rejimində dərhal təqdim olunacaq.

Arayışın elektronlaşdırılması dövlət satınalmalarında iştirak edən sahibkarlar üçün bir sıra üstünlüklər yaradır. Belə ki, təqdim edilən arayışın qanunun tələblərinə uyğunluğu portal vasitəsilə real vaxt rejimində yoxlanılacaq və istifadəçiyə dərhal məlumat veriləcək.

Daha ətraflı məlumatı sahibkarlar *“etender.gov.az”* portalının təlimatlar bölməsindən əldə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

### Azərbaycan Respublikası
### *“Naxçıvan” Universiteti müvafiq kafedralar üzrə “Baş müəllim” yerlərini tutmaq üçün müsabiqə elan edir*

Kafedralar üzrə boş yerlər aşağıdakı kimidir:

Azərbaycan dili və ədəbiyyat kafedrası – 1 yer

İdarəetmə kafedrası – 1 yer

Xarici dillər kafedrası – 2 yer

Ümumi tarix və beynəlxalq münasibətlər kafedrası – 3 yer

Riyaziyyat və informatika kafedrası – 1 yer

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, “Naxçıvan” Universiteti şəhərciyi***
***Telefon: (036)545-07-45***

### *İtmişdir*

Babək rayonunun Kültəpə kənd sakini Əliyev Mehman Həsən oğlunun adına olan JN-298A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Ərəzin kəndində yaşamış Kazımov Cəfər Cəlal oğlunun adına olan JN-143B inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

www.serqqapisi.gov.az

*Nömrəyə məsul:* Məcid Əkbərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 524